# ƏLİYEV NADİR ALIŞ OĞLU



Əliyev Nadir Alış oğlu 30 iyul 1962-ci ildə Ağdam rayonunun Əliağalı kəndində doğulmuşdur. 1977-ci ildə Əliağalı kənd orta məktəbinin səkkizinci sinfini bitirib, ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Elə həmin il Bakı Politexnik Texnikumuna daxil olmuşdur. 1981-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirmiş, az sonra hərbi xidmətə çağırılmışdır. O, 1983-cü ildə əsgəri xidmətini Qazaxıstanın Leninsk şəhərində başa vurub, Bakı Tunel Tikinti İdarəsində əmək fəaliyyətinə başlayır. Bir il tikintidə çalışdıqdan sonra 1984-cü ildə sənədlərini Bakı Dövlət Universitetinə verir və hüquq fakültəsinə daxil olur. 1986-cı ildə bir neçə tələbə ilə birlikdə onu Moskva DTK-nin Dzerjinsk adına Ali Hərbi Məktəbinə göndərirlər. Nadir Əliyev 1991-ci ildə təhsilini əla qiymətlərlə başa vurub Bakıya dönür. Yüksək biliyini, təcrübəsini nəzərə alaraq, onu Milli Təhlükəsizlik Nazirliyinə (keçmiş Azərbaycan DTK) işə qəbul edirlər. O, burada işləyə-işləyə BDU-da yarımçıq qalmış təhsilini də başa çatdırır. Qarabağda başlanan müharibə zamanı Nadir Əliyevi öz xahişi ilə MTN-nin xüsusi təyinatlı hərbi dəstəsinin tərkibində döyüş bölgəsinə göndərirlər. Nadir Əliyev baş əməliyyat müvəkkili kimi Ağdam, Şuşa, Ağdərə, Ağcabədi rayonlarında əhalinin təhlükəsizliyinin təmin edilməsi üçün əlindən gələni edirdi. 22 iyul 1993-cü ildə Ağdam rayonunun Qiyaslı kəndinin müdafiəsi uğrunda ağır döyüşlər gedirdi. Düşmən Qiyaslı kəndi istiqamətindən böyük qüvvə ilə Ağdam şəhərinə girməyə can atırdı. Baş leytenant N.Əliyev öz dəstəsi ilə düşmənin sayca çox qüvvələri qarşısında çətin durumda qalmışdı. Atışma demək olar ki, üzbəüz gedirdi. O, bu döyüşdə əsir düşməmək üçün sonadək müqavimət göstərmiş və bu döyüşdə qəhrəman döyüşçü həlak olmuşdu. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki övladı var. Azərbaycan Respublikası prezidentinin 9 oktyabr 1994-cü il tarixli 218 saylı fərmanı ilə Əliyev Nadir Alış oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Suraxanı rayonundakı 282 saylı orta məktəb 1996-cı ildən qəhrəmanın adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.